*Gülnar Hüseynova*

## *Gözlərdəki yaş ağladı*

Başqa dərdlər yalan oldu,
Bu dərd əldən salan oldu,
Xocalılar talan oldu,
Gözlərdəki yaş ağladı.

Ölüm görüb biçim-biçim,
Tarix yazdı yaddaş üçün.
İnildədi için-için
Qana bartmış daş ağladı

İnanılmaz bir dəhşətə,
Qan donduran bu vəhşətə,
Dözəmmədi məşəqqətə,
Ağıl çaşdı, baş ağladı.

Sıxıldıqca yanan ürək,
Əyildikcə çiyin, kürək,
Fikrə daldı kövrək-kövrək,
Düyünlənmiş qaş ağladı.

Baxıb viran məskəninə,
Alov qalxan küncə, tinə,
İnsanların cəsədinə,
Göy üzündə quş ağladı.

Dağların da gözü doldu,
Lal meşələr saçın yoldu,
Gəlişinə peşman oldu,
Buz bağlayan qış ağladı.

Yanan evdə köz üşüdü,
Dəhşət görən göz üşüdü,
Dil tutuldu, söz üşüdü,
Bərk qıcanmış diş ağladı.

Görünməmiş müsibətə,
Çox acı bir həqiqətə,
Yazılmamış bir qismətə,
Dövrani-gərdiş ağladı.

Xoş növrağın devirdilər,
Külünü yelə verdilər,
Xarabaya çevirdilər,
Dözmədi bayquş ağladı.

Dönməyəcək ölüb gedən,
Xocalılar pərən-pərən,
Sağ qalanlar ruhsuz bədən,
Ahıyla sinə dağladı.

***Hüseynova G. Gözlərdəki yaş ağladı : şeir // Azərbaycan. - 2011. - № 5. - S. 156-157.***